

İmir Məmmədli

### NİSGİL

Onda səni axtarmadım,
Ürəyimdə döndün dağa.
İndi adam axtarıram
O sevdadan danışmağa.

Göyüzünü bulud tutub,
Bəlkə bu gün yağış yağa.
Dərdbilənim yoxdur deyə
Çəkilmişəm bir qırağa.

### ÇƏKİLİR

Gəzdiyimiz dağın ətəyindəki
Duman yavaş-yavaş döşə çəkilir.
Otuz beş il keçib, gülüm, hələki
Adımız hər yerdə qoşa çəkilir.

Pul kimi xərclədik biz ömrümüzü,
Xatirə çalma tək başa çəkilir.
Gördün, iki sevən insanın üzü
Sonda ayrı-ayrı daşa çəkilir.

### PARADOKS

Oturmuşam özüm üçün,
Xəyallarım uzaqdadı,
İsti evin dəyəri də
İstidə yox, sazaqdadı.

Ürəyimdə olan şeylər
Həm də mənim çölümdədi.
Ömrün məğzi, mənası
Ömürdə yox, ölümdədi.

### VAXTINDA

Olanımı ucuz satdım
Zəmanənin xar vaxtında.
Mən gəlib qapıya çatdım
Qapıçının kar vaxtında.

Susadım, susadım içdim
Bulaqların şor vaxtında.
Bəxtimin önündən keçdim,
Eh, onun da kar vaxtında.

### ALLAHI GÖRMƏK EŞQİNƏ

Ömür bəlkə ölümdü,
Bəlkə indi ölmüşük.
Bəlkə diri olanda
Biz Allahı görmüşük.

Daha zaman tez keçir,
Gün qədərdi bir ilim.
Allahı görmək üçün
Gərək bir də dirilim.

### DÜNYANIN QƏRİBLƏRİ

Qurub yeri-göyü, suyu-dənizi,
Ol! - deyib bəşəri birdən yaradıb.
İşini bitirib, sonradan bizi
Əlinə yapışan gildən yaradıb.

Təsadüfən olmaq, yaşamaq çətin,
Çılsiz qalanlara çili çatmayıb.
Paylayıb Tanrımız bəxti, qisməti,
Bizim bəxtimizə gili çatmayıb.

### QARŞILIQLI

Mən elə bilirdim, indi uzatsam,
Güneş şəfəqinə çatacaq əlim.
Boşluğun asiman olması üçün
Üfüqlər lazımdı altı zirvəli.

Qapıdan çıxalı üzügünəşə
Durmadan gedirəm yola umudlu.
Torpağın dağ olub qalxması üçün
Asiman lazımdı bəyaz buludlu.

### DÜNYANIN SƏDDİ

Hər gün gəlib yerimdə
Ağac kimi bitərdim...
Sizin evin yanında
Mənim dünyam bitərdi.

Səni ərə verdilər,
Sonra səni itirdim...
İndi dünya hədsizdir,
Onda orda bitərdi.

## Səkkizliklər

### YALANDAN

Bizi çağıran olmadı,
Gəldik bu dünya evinə.
Doğrudan sevinc tapmadıq,
Barı yalandan sevinək.

Bu ağır yükü sonadək
Yüngül tük kimi daşıyaq.
Gerçəkdə həyat yox imiş,
Gəlin boşuna yaşayaq.

### TORPAQ VƏ BİZ

Hələ ki yoldaşıq bu torpaqla biz,
Torpaq bizim üçün köksünü qazır.
Daşların üstünə bir gəldiyimiz,
Bir də getdiyimiz günləri yazır.

Guya sahibiyik aranın, dağın,
Öldüyümüz yerdə qəbrimiz hazır...
... Otel sahibi də hər bir qonağın
Gəldiyi-getdiyi günləri yazır.

### AİLƏ ZORAKILIĞINA MƏRUZ QALAN QADIN

Daha düşünmürəm mən fikripəltək,
Bir neçə yerindən sınmış qüruram.
Solub yerə baxan günəbaxan tək
Başımı aşağı salıb dururam.

Sən belə istədin, mən bu yaşımda
Özümü böcəyə tay da görürəm.
Amma bil, başımı qaldırmasam da,
Günəşin əksini çayda görürəm.

### AĞIN QARA TƏRƏFİ VƏ YA PARADOKS

İşıldaquş nur saçınca
Zil qaranlıq lazım olur.
Gecələrdən keçir onun
Gündüzlərə gedən yolu.

Elə ki ağ günə çıxdı,
An içində rəngi solur,
O çevrilir həşarəta,
İşıq dönüb cücü olur.

### BÜRKÜLÜ GECƏ

- Sizin yanınıza gəldim beləcə
Tanrının təklənmiş tatarı kimi.
Gecə bürkülüdü, uzundu gecə
Bakının sərnişin qatarı kimi.

- Bunu başqa cür də deyə bilərdin,
Deyirlər, deyilən söz ulusundu...
Hələ gecə kimi uzanır dərdin,
Boşluğa aparan yollar uzundu.

### KÖLGƏ

Burda hər şey dəyişdi,
Mən özümə tən qaldım.
Dayanmışdım kölgədə,
Kölgə getdi, mən qaldım.

Vaxt gələcək, canımı
Can alanım alacaq.
Mən gedəcəm dünyadan,
Kölgəm burda qalacaq.

### NÖQTƏ

Bürüşüb nöqtəyə dönürəm gecə,
İnsan olmağımdan sanki doyuram.
Mən özüm özümün, canım, beləcə
Yaşadığım günə nöqtə qoyuram.

Bir gün bitirəndə uzun sözümü,
Yos-yorğun çatanda son saatıma,
Beləcə bürüşüb, özüm özümün
Nöqtə qoyacağam öz həyatıma.

### PAYIZ MƏNZƏRƏSİ

Gölün o tərəfində, seyrək dumanda
Bir kəndi görürəm, bir də məscidi.
Gölün qırağıyla bir adam gedir,
Bilməm nəçidi.

Qağayılar yoxdur gölün üzündə.
Gölün ətrafında qarğalar uçur.
Elə bil göl deyil. Su ilə dolub
Yerin ovucu.

### HƏR ŞEY

Deyirsən, sən daha şeir yazmırsan,
Arxa çevirmisən o gözəl çağa.
Deyirəm, əfəndim, papirosum var,
Kibrit tapammıram alışdırmağa.

Deyirsən, mən sənə hər şey verərəm.
Öz gözəl dünyanda olarsan ağa.
Deyirəm, hər şeyin bircə adı var -
Kibrit ver tütünü alışdırmağa.

### ZAMANIN LAQEYDLİYİ

Sən səhər səkkizdə öldün, ay ana,
Zamanın o anı sənə son oldu.
Ömürün dayandı, vaxt dayanmadı -
Saat doqquz oldu, saat on oldu...

Demişdin, bilirdim fanidir həyat,
Yenə də mat qaldım bu işə, ana,
Elə bil dünyada ilk dəfə idi
Əqrəbin getməsi doqquza, ona.

### BİR-BİRİNDƏN XƏBƏRSİZ

Siqaret çəkir sürücü,
Düşünür yolu barədə.
İki sərnişin dayanıb
Pulsuz-parasız bəridə.

Siqaret yanır, qurtarır,
Sürücü yola gərnəşir.
Avtobus gedir, yerində
Qalır o iki sərnişin.

### HƏMİŞƏ KEÇMİŞDƏ

Həyatin bir anı ana bərabər,
Ölümün bir anı - əbədiyyətə.
Ömürdən ölümə yol gedən insan
Həmişə istəyər vüsala çata.

Əzəldən ürəyə düşüb vəlvələ,
Bilmirik nəçiyik, bilmirik nəyik.
Hər gün gələcəyə can atsaq belə,
Həmişə sabahın keçmişindəyik.

### ANAM

Öz çayını, çörəyini
O bölərdi altı yerə.
Sevgi dolu ürəyini
O bölərdi altı yerə.

Bax beləcə ömrünü də
Altı yerə böldü anam,
Verdi altı balasına,
Sonra rahat öldü anam.

### AXTARA-AXTARA UZAQLAŞAN

Bir gün soruşacaq yorğun ayaqlar
Üzüqara, ancaq özü ağ başdan:
Sən hansı ağılla və hansı haqla
Bizi ayrı saldın dostdan, qardaşdan!?

Çox yeyin gedirdin, canım, çox yeyin
Arxa çevirəndə yuvaya, yurda.
Xəbərin olmadı, burda gəzdiyin,
Burda axtardığın ordaydı, orda!

### QƏRİBƏDİR

Anlamaq istəsən, anlayamazsan,
Nə qədər istəsən zikr elə oxu.
Qəribədir, torpaqda çürüyür insan
Və həmin torpaqda cücərir toxum.

Mən bunu bilmirəm, bilmirdi atam,
Yoxuşa gedən yol düşür enişə.
Qəribədir, torpağa qarışır adam
Və həmin torpaqda yaşayır rişə.

### TƏHLÜKƏ

Həmişə yanımda olmalısan ki,
Söz gizlin çağıra bilməsin məni.
Qələm şeytan kimi qəlbimə girib
Yolumdan çıxara bilməsin məni.

Amanın gündü, məni tək qoyma,
Əməlimi görən deyər dəlidi...
Kibritlə oynayan uşaq kimiyəm,
Qələm kibritdən də təhlükəlidi.

